ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.56-60

# ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINDA AQRAR EMAL SƏNAYESİNİN İNKİŞAFININ ROLU

Vəfa Qənbər qızı Məmmədova[1], Anar Fizuli oğlu Həsənov [2]

**XÜLASƏ**

**Tədqiqatın məqsədi -** Azərbaycan respublikasında aqrar emal sənayesinin və əhalinin ərzaq təminatının mövcud vəziyyətini təhlil etmək və eləcə də ərzaq təminatının yaxşılaşdırılmasına dair prioritet istiqamətləri müəyyənləşdirməkdən ibarətdir.
**Tədqiqatın metedologiyası -** Elmi araşdırmada Azərbaycan respublikasında aqrar emal sənayesinin və ərzaq təminatının mövcud vəziyyəti müşahidə və müqayisəli təhlil metodları əsasında tədqiq olunmuşdur.
**Tədqiqatın tədbiqi əhəmiyyəti -** Azərbaycan ərzaq təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin müəyyən fazalarında nəzərə alına bilər.
**Tədqiqatın nəticələri -** ərzaq təminatının yaxşılaşdırılması istiqamətində kənd təsərrüfatında istehsal infrastrukturunun və aqrar emal sənayesinin inkişaf etdirilməsinin zəruriliyi aşkar olunmuşdur.
**Tədqiqatın elmi yeniliyi -** qloballaşma şəraitində ərzaq təminatının yaxşılaşdırılmasının obyektiv zəruriliyi əsaslandırılmış; respublikada ərzaq təminatı səviyyəsi ilə kənd təsərrüfatı istehsalının mövcu göstəricilərinin uzlaşma səviyyəsi tədqiq olunmuşdur.
**Açar sözlər: Açar sözlər:**ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, qloballaşma, istehsal,emal

## Giriş

Müasir iqtisadi şəraitdə dövlətin iqtisadi siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri ölkənin ərzaq təminatının yaxşılaşdırılmasıdır. Məlum olduğu kimi qloballaşma prosesinin dərinləşməsi, nəticə etibarilə ərzaq təminatı problemini artıq beynəlxalq miqyasda siyasi təsir vasitəsinə çevirmişdir. Qeyd etmək lazımdır ki, ölkə əhalisinin ərzaqla təminatının yaxşılaşdırılması, dünya bazarında baş verən konyunktur dalğalanmaları ilə də sıx əlaqədardır. Hazırda dünya bazarında yanacaq və enerji daşıyıcılarının qiymətlərinin artması, eləcə də torpaqların urbanizasiyası, əhalinin sayının artması, bundan əlavə su ehtiyatlarının məhdudlaşması və digər bu kimi faktorlar kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərinin sürətli artımına gətirib çıxarır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı məhsulları istehsalının artırılması önəmli cəhətlərdən birini təşkil edir. Kənd təsərrüfatı məhsulları istehsalının artırılması nəticə etibarilə əhalinin ərzaq məhsullarına olan tələbatın ödənilməsində, eləcə də sənayenin kənd təsərrüfatı xammalına olan ehtiyaclarının qarşılanmasında mühüm rol oynayır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi, hər bir ölkənin milli təhlükəsizliyinin təmin edilməsi baxımından önəmli funksiyalar yerinə yetirir. Qeyd etmək lazımdır kənd təsərrüfatının milli iqtisadiyyatda payının yüksəldilməsi də bütövlükdə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, eyni zamanda yeyinti sənayesinin inkişaf etdirilməsindən də bilavasitə asılıdır.

[1] Vəfa Qənbər qızı Məmmədova , marketinq kafedrasının dosenti, Vafa.Mammada.30003@gmail.com
[2]Anar Fizuli oğlu Həsənov , marketinq kafedrasının baş müəllimi, anar.qasanzade@mail.ru 055 991223

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.56-60

Yeyinti sənayesinin inkişaf etdirilməsi, nəticə etibarilə əhalinin hazır qida məhsullarına olan ehtiyacının ödənilməsi deməkdir (Abbasov, 2007). Qeyd etmək lazımdır ki, qida məhsullarının istehsalının artırılması emal müəssisələrinin modernləşdirilməsi ilə sıx əlaqədardır. Aparılan araşdırmalar göstərir ki, yeyinti sənayesi məhsullarının istehsal həcminin artırılması və onun rəqabətədavamlılığının yüksəldilməsi, müasir şəraitdə xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu onunla bağlıdır ki, daxili bazar kifayət qədər liberal şərtlərlə idarə olunur və məhz belə bir şəraitdə xarici ölkələrdən idxal olunan hazır qida məhsulları ərzaq bazarında önəmli xüsusi çəki təşkil edir və bu məhsulun rəqabətədavamlılığı ilə sıx əlaqədardır. Belə ki, xaricdən gətirilən məhsulların qiymətlərinin aşağı olması nəticəsində istehlakçı tərəfindən həmin məhsulların reallaşdırılması həyata keçirilir ki, bu da ölkəmizdən valyutanın xaricə axınına gətirib çıxarır.

Aqrar emal sənayesinində rəqabətqabiliyyətli istehsalın istehsalın modernləşdirilməsi və müasir texnologiyaların tətbiq edilməsi vacibdir. Bunun üçün isə özəl qurumlar tərəfindən müasir texnologiyaların gətirilməsi və həmin texnologiyaların istehsalda tətbiqi nəticəsində qida məhsullarının istehsalının artırılması ön plana çəkilməlidir (Qurbanzadə, 2017). Təbii ki, bu məqsədlə dövlət tərəfindən zəruri təşkilati-iqtisadi dəstəyin göstərilməsi də vacib şərtlərdən biridir. Aparılan araşdırmalardan göründüyü kimi respublikamızın maliyyə imkanlarının hal-hazırda yüksəlməsi, bütövlükdə yeyinti sənayesinin modernləşdirilməsinə istər özəl investorların və istərsə də dövlət xətti ilə investisiya qoyuluşlarının yönəldilməsinə diqqət artırılmalıdır. Bundan əlavə birgə müəssisələrin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilməlidir. Aparılan araşdırmalar göstərir ki, bir sıra hallarda kənd təsərrüfatında məhsul istehsalının artımının müasir tələblərə cavab verməməsi, regionlarda emal sənayesi müəssisələrinin demək olar ki, azad rəqabət əsasında fəaliyyət göstərməməsi ilə sıx əlaqədardır. Regionda emal müəssisələrinin sayının azalması, bir sıra hallarda emal müəssisələrinin inhisarçılıq fəaliyyəti ilə məşğul olmalarına gətirib çıxarır ki, bu da kənd təsərrüfatının iqtisadi maraqları baxımından kifayət qədər zərərli hesab edilir (Quliyev, 2013)

**Cədvəl 1**

**Yeyinti sənaye məhsullarının ən mühüm növlərinin natura ifadəsində istehsalı (min ton )**

| Göstəricilər | İllər | | | | | 2014-ci illə müqayisədə 2020-ci ildə artımı (+) azalma (-) |
|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2018 | 2019 | 2020 | |
| Kolbasa məmulatı | 6,6 | 5,0 | 16,4 | 19,3 | 25,8 | +3,9 dəfə |
| Kərə yağı | 23,4 | 23,9 | 23,6 | 25,3 | 25,8 | +10,2% |
| Pendir və kəsmik | 48,0 | 48,5 | 50,1 | 51,3 | 53,5 | +11,4% |
| Un | 1476 | 1507 | 1602,9 | 1781,7 | 1842,9 | +24,8% |
| Çörək və bulka | 1186 | 1198 | 1235,0 | 1256,4 | 1294,6 | 1,0% |
| Süd | 745,6 | 754,8 | 911,3 | 945,4 | 946,4 | +26,9% |
| Qaymaq | 840,1 | 857,4 | 6947,0 | 7620,2 | 7742,2 | +9,2 dəfə |
| Bitki yağları | 106 | 5132 | 71,1 | 75,1 | 75,1 | -30,0% |
| Təbii çay | 9,3 | 9,2 | 9,3 | 9,8 | 10,6 | +13,9% |
| Qənd | 410,6 | 335,6 | 203,1 | 271,0 | 246,5 | -66,0% |
| Makaron | 32,0 | 36,3 | 4,2 | 4,7 | 11,8 | 2,7 dəfə |
| *Meyvə və tərəvəz konser* | 106,9 | 106,7 | 164,7 | 191,5 | 186,7 | +74,6% |
| Duz | 44,2 | 51,1 | 66,7 | 77,1 | 76,4 | +72,8% |

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.56-60

Mənbə:www.stat.gov.az

Araşdırmalardan məlum olur ki, respublikamızda son illər emal sənaye məhsullarının istehsalında əhəmiyyətli irəliləyişə nail olunmuşdur. 2014-2020-ci illərin məlumatlarını tədqiq aydın olur ki, respublikamızda müvafiq dövrdə yalnız bitki yağı və qənd istehsalı istisna olmaqla əsas növ yeyinti məhsulları istehsalında müsbət dinamika müşahidə olunmuşdur (5). Lakin etiraf etməliyik ki, emal sənayesində istehsal olunan bir çox kənd təsərrüfatı məhsulunun xammalını xarici dövlətlərdən respublikamıza idxal edilir. Xüsusilə bu gün ərzaq təminatının əsas meyarlarından biri kimi qəbul olunan emal olunmuş taxıl, un məmulatlarının və ət məhsullarının təqribən 1/3-nin xammalının xarici ölkələrdən ölkəmizə gətirilməsi dünyanın iqtisadi konyukturunda baş verən kəskin dəyişikliklərin fonunda perspektivdə kifayət qədər böyük risq təşkil edir.

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, əhalinin ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər paralel şəkildə reallaşdırılmalı, daha doğrusu, dövlətin məqsədyönlü tədbirləri nəticəsində həm yerli istehsalın dinamikasının artırılmasına diqqət yetirilməli, həm də əhalinin alıcılıq qabiliyyəti tələbinin yüksəldilməsi təmin edilməlidir. Bundan əlavə daxili bazarın qorunmasına da xüsusi diqqət yetirilməlidir. Daxili bazarın çevik şəkildə qorunması, yerli istehsalın stimullaşdırılması və əhalinin alıcılıq qabiliyyətinin stimullaşdırılması hesabına əhalinin ərzaq məhsulları ilə etibarlı şəkildə təmin etmək mümkündür.

**Cədvəl 2**

**Azərbaycanda əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, (%-lə)**

| | | | | | Bitkiçilik | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| Dənlilərin cəmi | 64,8 | 64,3 | 63,9 | 60,6 | 64,5 | 63,8 | 66,3 | 74,1 | 67,3 | 68,1 |
| buğda | 57,7 | 56,8 | 55,9 | 54,1 | 54,8 | 52,9 | 58,1 | 64,8 | 57,2 | 57,1 |
| arpa | 93,7 | 95,1 | 97,8 | 84,6 | 95,1 | 101,7 | 94,4 | 103,1 | 100,2 | 94,6 |
| qarğıdalı | 68,0 | 67,3 | 60,0 | 56,7 | 54,1 | 71,1 | 70,7 | 82,7 | 80,0 | 86,6 |
| vələmir | 82,8 | 84,4 | 89,3 | 62,2 | 93,1 | 85,7 | 90,1 | 89,2 | 90,9 | 86,6 |
| sair növ dənlilər | 4,0 | 8,7 | 2,3 | 1,1 | 6,3 | 32,0 | 20,4 | 82,3 | 88,2 | 93,9 |
| Paxlalılar | 70,4 | 71,6 | 76,6 | 76,5 | 69,3 | 68,4 | 73,7 | 72,0 | 76,1 | 60,3 |
| Kartof | 101,6 | 98,2 | 97,6 | 89,7 | 89,1 | 85,5 | 89,2 | 90,8 | 87,8 | 90,6 |
| Bütün növ tərəvəz | 95,7 | 98,9 | 102,3 | 103,4 | 103,4 | 105,4 | 115,2 | 115,0 | 112,0 | 110,4 |
| Bostan məhsulları | 100,2 | 100,1 | 100,0 | 100,4 | 100,0 | 100,2 | 100,2 | 99,7 | 100,8 | 100,8 |
| Meyvə və giləmeyvə | 116,8 | 125,7 | 121,8 | 120,1 | 113,7 | 116,4 | 122,4 | 123,2 | 123,1 | 116,3 |
| Üzüm | 89,9 | 94,3 | 94,8 | 97,9 | 93,1 | 89,2 | 93,4 | 92,5 | 94,3 | 95,8 |
| Bütün növ mal-qara və quş əti | 89,1 | 83,9 | 87,7 | 87,2 | 91,8 | 92,4 | 84,7 | 82,7 | 82,5 | 84,5 |
| mal əti və ət məhsulları | 95,3 | 95,8 | 95,5 | 88,0 | 92,6 | 86,3 | 86,3 | 85,1 | 86,1 | 87,4 |
| qoyun (keçi) əti və ət məhsulları | 99,9 | 98,7 | 99,7 | 99,8 | 98,5 | 97,7 | 98,0 | 98,1 | 97,6 | 84,5 |
| quş əti və ət məhsulları | 77,3 | 65,0 | 70,6 | 79,9 | 87,8 | 98,5 | 79,7 | 75,9 | 74,6 | 79,0 |

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.56-60

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Süd və süd məhsulları | 89,5 | 70,1 | 70,4 | 70,9 | 72,5 | 76,0 | 86,1 | 86,7 | 86,3 | 83,5 |
| Yumurta | 98,9 | 98,4 | 97,9 | 77,4 | 96,2 | 100,0 | 100,5 | 101,5 | 101,8 | 100,0 |

Mənbə: www.stat.gov.az

**Nəticə:**

2020-ci ilin məlumatlarından məlum olur ki, respublikamızda əsas növ ərzaq məhulları ilə özünütəminetmə səviyyəsi risqli həddə olmasada xüsusilə taxıl məhsulları başda olmaqla bir çox kənd təsərrüfatı mənşəli məhsulların istehsalında müəyyən irəliləyişə nail olunmalıdır. Araşdırmalar göstərir ki,yumurta,tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə istisna olmaqla bir çox məhsullar üzrə tam olaraq özünü təminetmə səviyyəsinə çatmamışdır. Bu aspeketdə emal sənayesinin inkişafı və modernləşməsi ilə yanaşı kənd təsərrüfatı istehsalında da intensivlik təmin olunması vacib şərtdir.

Hesab edirik ki, yaxın gələcəkdə işğaldan azad olunmuş rayonlarımız başda olmaqala respublikamızda yeni texnologiyalarla təhciz olunmuş aqroemal müəssislərinin formalaşdırılaraq inkişaf etidrilməsi üçün yeni strategiya inkişaf konsepsiyasının hazırlanmasıdır. Bu konsepsiya aqroemal sahəsinin dayanıqlı iqtisadi artımını və xammal istehsalı potensialı ilə emal sahəsi arasında iqtisadi tarazlığın təmin edilməsinə yönəldilməlidir. Yeni konsepsiyada başlıca olaraq aqrar sahədə mövcud olan disproporsiyaların aradan qaldırılması yolu ilə səmərəli tarazlıqların yaradılması, iqtisadi rayonların inkişafında tarazlıqların yaradılması; bu sahədə kiçik emal zavodlarının təşkil edilməsi, emal məhsullarının artırılması üçün sahibkarlıq fəaliyyətinin formalaşdırılması və səmərəli stimullaşdırma mexanizmlərinin hazırlanması diqqət mərkəzində durmalıdır.

**Ədəbiyyat :**

1.Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı - 2017. (547 s).

2.Quliyev E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı: Elm", 2013, 151.

3.Abbasov A. F. Ərzaq təhlükəsizliyi. Bakı 2007. 602 s.

4.Marocchino, Cecilia Aguide to upgrading rural agricultural retail markets Rome: Food And Agrilculture Organization Of The United Nations 2009.

5. www.stat.gov.az

## THE ROLE OF AGRO-PROCESSİNG İNDUSTRY İN İMPROVİNG FOOD SUPPLY

**Summary:**

**The purpose of the research:** consists of analyzing the current situation of the agro-processing industry and the food supply of the population in the Republic of Azerbaijan, as well as determining the priority directions for improving the food supply.

**The methodology of the research** : In the scientific study, the current situation of the agro-processing industry and food supply in the Republic of Azerbaijan was studied based on the methods of observation and comparative analysis.

**The practical importance of the research:** Azerbaijan can be taken into account in certain phases of measures implemented in the direction of improving food supply.

**Results of the study**

**The results of the research:** the need to develop the production infrastructure and agro-processing industry in agriculture in order to improve the food supply was revealed.

**The scientific novelty of the research:** the objective necessity of improving the food supply in the conditions of globalization is substantiated; the level of agreement between the level of food supply and the current indicators of agricultural production in the republic was studied.
**Keywords:** food security, agriculture, globalization, production, supply

# РОЛЬ АГРОПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ В УЛУЧШЕНИИ СНАБЖЕНИЯ ПРОДОВОЛЬСТВИЕМ

Вафа Ганбар кызы Мамедова[1], Анар Физули оглы Гасанов[2]

## Резюме:

**Цель исследования** состоит в анализе текущего состояния агроперерабатывающей промышленности и продовольственного обеспечения населения в Азербайджанской Республике, а также определении приоритетных направлений улучшения продовольственного обеспечения.

**Методология исследования:** В ходе научного исследования на основе методов наблюдения и сравнительного анализа было изучено современное состояние агроперерабатывающей промышленности и снабжения продовольствием в Азербайджанской Республике.

**Прикладная значимость исследования:** Азербайджан может быть принят во внимание на определенных этапах мер, реализуемых в направлении улучшения продовольственного обеспечения.

**Результаты исследования:** выявлена необходимость развития производственной инфраструктуры и агроперерабатывающей промышленности в сельском хозяйстве с целью улучшения продовольственного обеспечения.

**Научная новизна исследования:** обоснована объективная необходимость улучшения продовольственного обеспечения в условиях глобализации; изучен уровень соответствия между уровнем продовольственной обеспеченности и текущими показателями производства сельскохозяйственной продукции в республике.

**Ключевые слова**: *продовольственная безопасность, сельское хозяйство, глобализация, производство, предложение*